# Qəbələ sürətli inkişafın yeni mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2014-cü ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi





**(Əvvəli 3-cü səhifədə).**

İl ərzində 1101 sığortaedilən qeydiyyata alınmışdır ki, bunlardan 63-ü hüquqi, 855-i fiziki şəxs, 153-ü isə pay torpaq mülkiyyətçisi olmuşdur. 2015-ci ilin 1 yanvar vəziyyətinə şöbə üzrə 11.551 pensiya işi üzrə 11.867 nəfər əmək pensiyaçısı qeydiyyata alınmışdır. Hesabat dövründə pensiyaçılara ümumilikdə 21.285,9 min manat pensiya ödənilmiş, orta aylıq pensiya məbləği 1.764,3 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 152 manat 74 qəpik təşkil etmişdir.

Qəbələ rayon Məşğulluq Mərkəzində il ərzində işsiz və işaxtaran kimi 610 nəfər vətəndaş qeydiyyata alınmış, onların 16 nəfərinə işsizlik statusu verilmişdir. Qeydiyyatdan keçmiş 610 nəfərdən 330 nəfəri müvafiq işlə təmin edilmişdir. İl ərzində biri əlil olmaqla 5 nəfər vətəndaş kvota üzrə işlə təmin olunmuş, 5 nəfər işaxtaran vətəndaş 1 ay müddətinə haqqı ödənilən ictimai işlərə cəlb edilmişdir. Mərkəzdə qeydiyyatdan keçmiş qeyri məşğul əhalidən 5 nəfəri qadın olmaqla 16 nəfər kompüter mühasibliyi peşə kursuna cəlb edilmiş, onlardan 8 nəfəri kursu bitirdikdən sonra işlə təmin olunmuşdur.

**Hörmətli toplantı iştirakçıları!**

2014-cü ildə Mirzəbəyli-Çuxur Qəbələ-Dizaxlı-Çarxana avtomobil yolunda əsaslı təmir, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin daxili qoşunlarının "N" saylı alayında, qida şəhərciyində, kartof soyuducu anbarında, Çuxur Qəbələ kəndindəki Arxeoloji Araşdırmaların Tədqiqatı Mərkəzinin inzibati binasında, Qafqaz-Yengicə Termal Otel və SPA obyektində, 80 şagirdyerlik Yengicə kənd orta məktəbinin, 220 şagirdyerlik Zirik kənd orta məktəbinin və Qəbələ şəhərindəki 5 nömrəli tam orta məktəbin binalarında tikinti işləri başa çatdırılmışdır.



«Gilan qida şəhərciyi»ndə.

Hazırda Qəbələ Futbol Akademiyası və stadionlar kompleksində, Dəmiraparan çayı üzərindəki 10 aşırımlı, 324 p.metrlik beton körpüdə, "Aquapark" istirahət mərkəzində, "Tufandağ" dağ-xizək yay-qış istirahət kompleksinə daxil olan xizəkçilik mərkəzi və Tufangöl otelində, "Qrand siti" otelində, hərbi xidmətə çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin, rayon məhkəməsinin və prokurorluğun inzibati binalarında, Savalan kəndindəki "Raftinq Mərkəzi"ndə, Laza sərhəd zastavasında, Nohur gölü ərazisindəki otellər kompleksində, gömrük akademiyasının, YAP Qəbələ Rayon Təşkilatının, "ASAN xidmət"in rayon filialının, kənd təsərrüfatı idarəsinin inzibati binalarında, atıcılıq və atçılıq idman mərkəzlərində tikinti-quraşdırma işləri davam etdirilir.

İl ərzində Qəbələ şəhərində abadlıq işləri davam etdirilmiş, Həzi Aslanov və Sahil küçələrində yenidənqurma işləri başa çatdırılmışdır. Hazırda Seyid Əzim Şirvani və İsmət Qayıbov küçələrində tikinti-abadlıq işləri həyata keçirilir.

Eləcə də Zarağan kəndindəki hərbi şəhərciyin 11 binasının və şəhərin beşmərtəbəli yaşayış binalarının istilik, su-kanalizasiya sistemi, dam örtüyü və fasadı əsaslı təmir edilmişdir.

Məlumat üçün bildirirəm ki, 2015-ci ildə Qəbələ Peşə Məktəbinin yeni binasının, rayon mərkəzi xəstəxanasının, Dillər Universitetinin Qəbələ Filialının, Yengicə su anbarının, turizm akademiyasının, Qəbələ şəhərində hər biri 100 yerlik 2 uşaq bağçasının, qəzalı vəziyyətdə olduğuna görə sökülmüş şəhər 1 nömrəli uşaq bağçasının yeni binasının və Nohurqışlaq-Tüntül-Yengicə avtomobil yolunun tikintisinə başlanılması nəzərdə tutulmuşdur.

**Hörmətli toplantı iştirakçıları!**

2013-2014-cü dərs ilini təhsil müəssisələri də yüksək nəticələrlə başa vurmuşlar. Ümumtəhsil məktəbləri üzrə müvəffəqiyyət faizi 99,7 faiz, keyfiyyət göstəricisi isə 63,8 faiz olmuşdur. XI siniflər üzrə buraxılış imtahanlarının nəticələri isə 71,4 faiz təşkil etmişdir. Məktəblərdən şəhər 1, 2, 3, 4, 5 saylı, Vəndam qəsəbə 1, 2 saylı, Nohurqışlaq, Tüntül, Əmirvan kənd tam orta məktəblərinin keyfiyyət göstəriciləri rayonun ümumi göstəricisindən yüksək olmuşdur.

On birinci sinfi bitirən 1381 nəfər şagirddən 810 nəfəri ali məktəblərə qəbul olunmaq üçün sənəd vermiş, onlardan 534 nəfəri ali məktəbə qəbul edilmişdir. Bu da əvvəlki illə müqayisədə 38 nəfər çoxdur. Ali məktəbə qəbul olunanların 131 nəfəri 500-dən yuxarı, 27 nəfəri isə 600-dən yuxarı bal toplamışdır.

Ötən il təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilmişdir. Şəhər 5 saylı tam orta, Zirik və Yengicə kənd ümumi orta məktəblərinin tikintisi başa çatmışdır. Böyük Pirəli kənd tam orta məktəbi əsaslı təmir edilmişdir.

Şəhər 4 saylı tam orta məktəbin idman zalı əsaslı təmirdən çıxarılmış, Qəmərvan, Həmzəli kənd, şəhər 1, 3 saylı tam orta məktəblərində isə cari təmir işləri aparılmışdır.

**(Ardı 5-ci səhifədə).**